


# Azərbaycanı haqq mübarizəsindən heç bir qüvvə döndərə bilməz

***Azərbaycan Ordusu gücü, qüdrəti hesabına cəbhənin bütün istiqamətlərində mövqelərini gündən-günə möhkəmləndirir. Ermənistan isə getdikcə həm hərbi, həm də siyasi sahədə daha ağır məğlubiyyətə uğrayır. Bunu cəbhədə Azərbaycan tərəfindən təmas xəttinin pozulması, status-kvonun ölkəmizin lehinə dəyişməsi də aydın göstərir. Siyasi təhlilçilər tərəfindən hazırda Azərbaycan Ordusunun öz torpaqlarında həyata keçirdiyi hərbi əməliyyatları, dövlətimizin başçısının da vurğuladığı kimi, məhz sülhə məcburetmə əməliyyatı adlandırılır. Məşhur isveçli politoloq Svante Kornellin qeyd etdiyi kimi, regionda sülhə və təhlükəsizliyə ən böyük təhdid, məhz Ermənistandır. Azərbaycan torpaqlarına qəsd edərək beynəlxalq hüququn bütün norma və prinsiplərinə məhəl qoymayan işğalçı ölkənin siyasi kursunun bu cür qiymətləndirilməsi, fikrimizcə, düzgün və ədalətlidir. Bu baxımdan, uzun illər beynəlxalq hüququn prinsip və normalarını, o cümlədən, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini gözardı edən və eyni zamanda, danışıqlar prosesinə destruktiv yanaşan Ermənistan rəhbərliyinin təcavüzkar ritorikasına qarşı Azərbaycan rəhbərliyinin qətiyyətli mövqeyi anlaşılandır.***

Burada bir məqamı da xüsusi qeyd etmək istərdik. Məlum Moskva razılaşmasında Paşinyan rejimi danışıqların baza prinsiplərinə sadiq qalacağını bildirdi və danışıqların əvvəlki formatının dəyişməyəcəyi ilə razılaşmalı oldu. Lakin bundan az sonra "Qarabağ Ermənistandır", "Dağlıq Qarabağ Respublikası danışıqlarda üçüncü tərəf olaraq iştirak etməlidir",– deyən, "yeni ərazilər üçün yeni müharibə" adlı təcavüzkar bir hərbi doktrina elan edən işğalçı ölkənin rəhbərliyi fikrini danışdı, humanitar atəşkəs prinsipini pozdu. Bu, bir daha Paşinyan rejiminin mahiyyətini, riyakar siyasət yürütdüyünü, konstruktiv mövqeyə maraqlı olmadığını, işğalçılıq siyasətinə sadiq qaldığını göstərdi.

Beləliklə, Azərbaycan işğalçı respublikanın– torpaqlarımızın 20 faizdən çox hissəsini tapdaq altında saxlayan Ermənistanın tərəfini tutan, haqqa, ədalətə göz yuman dövlətlərin, necə deyərlər, sağdan, soldan təzyiqlərinə baxmadan haqq mübarizəsini, haqq savaşını davam etdirdi. Prezident İlham Əliyev bununla bağlı Türkiyənin "Haber Türk" telekanalına müsahibəsində düşmənin mülki əhaliyə hücumlarının məqsədi barədə danışarkən dedi: "Ermənistanın Gəncəni, Mingəçeviri, Bərdəni, mülki əhalinin yaşadığı digər yerləri hədəfə almasında məqsəd panika, xaos, qorxu yaratmaqdır. Bu gün Azərbaycan tam başqa bir ölkədir. Bu gün yeni nəsil yetişib. Müstəqillik şəraitində yeni vətənpərvər, həm mənəvi, həm də fiziki cəhətdən güclü insanlar yetişib. Eyni zamanda, yaşlı nəsil də bu gün tam başqa bir dünyagörüşünə malikdir".

Dövlətimizin başçısı, həmçinin bu mübarizədə ölkəmizin güclü iradəsinin, güclü ordusunun olduğunu bildirdi. Vurğuladı ki, məhz buna görə də bu xain hücumlar bizim iradəmizi qıra bilmədi: "Erməni vəhşiliyindən ən çox zərər çəkən Tərtər şəhəridir. Tərtər şəhərinə minlərlə mərmi düşüb. Tərtər balaca bir şəhərdir, Gəncə kimi böyük şəhər deyil. Amma tərtərlilər bir dağ kimi, bir yumruq kimi dayanıblar, heç bir yerə getmirlər və deyirlər, öldü var, döndü yoxdur. Həmçinin Ağdamda da, Goranboyda da, Ağcabədidə də, cəbhə xəttinə yaxın olan bütün başqa bölgələrdə də belədir... Onlar düşmənlə üz-üzə yaşamağa öyrəşiblər. Onlar nə qədər cəsarətli, nə qədər qürurlu insanlardır ki, orada düşmənin atəşi altında yaşayır, qurur, övladlarını böyüdür. Azərbaycan xalqı, bax, bu xalqdır".

Düşmənin bu hücumlarından digər bir məqsədin Azərbaycanı dayandırmaq olduğunu vurğulayan dövlətimizin başçısı sözünə davam edərək diqqətə çatdırıb ki, erməni işğalçıları düşünürlər ki, bu hərəkətləri ilə bizi dayandıracaqlar. Halbuki, Azərbaycanı ədalətli mübarizəsindən heç kim, heç bir qüvvə döndərə bilməz: "Çünki biz haqq yolundayıq, bu yolu davam edirik və uğurla davam edirik. Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik!".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın ədalətli mübarizə, haqq savaşı apardığını hər zaman olduğu kimi, hakim Ədalət və İnkişaf Partiyasının Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısında da diqqətə çatdırıb: "Vətən uğrunda mübarizə aparan azərbaycanlı qardaşlarıma rəbbimdən güc, qüvvət, zəfər arzu edirəm. Ermənistanın həm hücum edən, həm də atəşkəsi pozan tərəf olmasına baxmayaraq, Azərbaycana təzyiq edən ölkələrin məqsədi münaqişəni dayandırmaq deyil. Əgər belə olsaydı, Azərbaycanın yaşayış yerlərinə ballistik raketlərlə hücumlar edən Ermənistana təzyiq edərdilər. İşğal altındakı Azərbaycan torpaqlarındakı zülmləri, qətliamları otuz ildir görməzliyə vuranların bu gün ədalətdən danışmaları səmimi deyil. Yaşadığımız təcrübələr bizə deyir ki, haqq-ədalətə nail olmağın yolu mübarizədir. Azərbaycanlı qardaşlarımız da bu istiqamətdə qərarlı mübarizə yolundadırlar".

Göründüyü kimi, qardaş ölkə rəhbərinin bu sözləri də dövlətimizin humanistliyini və tarixi ədalətin bərpası istəyini, torpaqlarımızı işğaldan azad etmək mövqeyini, dövlətimiz və xalqımızın sülh tərəfdarı olduğunu nümayiş etdirir.

Bu gün Milli Ordumuz da təcavüzkardan fərqli olaraq, beynəlxalq normalara əməl edir, mülki əhalini atəşə tutmur, hətta dövlət başçımız Xankəndinin erməni sakinlərinə də müraciət ünvanlayaraq bildirib ki, bizim hədəfimiz yalnız işğalçı ordu və onun döyüşçüləridir. Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə və onun infrastrukturlarına atəş açmayacaq. Mülki əhalinin narahat olmasına heç bir əsas yoxdur. Halbuki bunun tam əksi olaraq, qeyd etdiyimiz kimi, təcavüzkar ölkə, dinc əhalinin yaşayış yerlərini, infrastrukturu ağır artilleriya atəşinə tutur və bu, birinci dəfə deyil...

Azərbaycan hökuməti hər zaman olduğu kimi, bu gün də xalqa arxalanır: hadisələrin gedişatı ilə bağlı xalqa daim rəsmi məlumat verilir, ordumuzun nailiyyətləri dərhal xalqın diqqətinə çatdırılır. Bu, bir daha sübut edir ki, xalq öz ordusuna etibar edir və onun ordu ilə birliyi sarsılmazdır. On minlərlə insanın orduya könüllü kimi yazılması, eləcə də təxribatlar zamanı öz evlərini tərk etməməsi Azərbaycanda xalq-ordu birliyindən və orduya olan inamdan xəbər verir. Bu gün Azərbaycan bütün dünyaya güclü dövlət və güclü ordusunun olduğunu nümayiş etdirir.

Bəli, bu gün Azərbaycanda öz torpağımızda Vətən müharibəsi gedir. Ordumuz beynəlxalq hüquqa əsaslanıb Ermənistan tərəfindən işğal olunan torpaqlarımızı azad edir.

Hazırda Azərbaycan Ordusunun qarşısında tab gətirə bilməyən ermənilər hərbi maşınlarını, silah-sursatlarını, hətta bayraqlarını belə döyüş meydanında qoyub qaçırlar. Haqq işi uğrunda mübarizəyə qalxan Azərbaycan isə tutduğu yoldan dönmək fikrində deyil. Prezident İlham Əliyev xarici televiziya kanallarına verdiyi müsahibələrdə və oktyabrın 4-də Azərbaycan xalqına müraciətində də öz siyasətində və mövqeyində dönməz olduğunu bir daha təsdiqləyib. Dövlətimizin başçısı vurğulayıb ki, "Bizi döyüşləri dayandırmağa, yenidən mənasız sülh danışıqlarına cəlb etməyə çalışan dövlətlərə üz tutaraq bildirirəm ki, qoy Paşinyan etiraf etsin ki, Qarabağ Ermənistan deyil, eyni zamanda, Azərbaycan xalqından üzr istəsin. Bundan sonra bizim şərtlərimizlə döyüşləri dayandırmaq mümkündür".

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 16 oktyabr.- S.5.